## Verifikasiya haqqında təklif

*Yerli istehsalçıların məhsullarının üzərindəki ştrix-kodların keyfiyyətinin yoxlanması məqsədilə Təcrübə-sınaq mərkəzinə (AzTest) GS1 Azərbaycan Cəmiyyəti tərəfindən birgə fəaliyyət barədə təklif göndərilmişdir. Əsas məqsəd - Verifikasiya keçirən Mərkəzin yaradılmasıdır.*
*Bildiyiniz kimi, ştrixkodların çap keyfiyyətinin yoxlaması üçün xüsusi cihaz - verifikatordan istifadə olunur. Sınaq nəticəsində verifikator ştrixkodun keyfiyyəti haqqında protokol verir. O ştrixkodun qüsurlarının aradan qaldırılmasına köməklik göstərir. Verifikasiyadan keçən məhsullar ştrixkod skanerləri ilə rahat oxunur və iş prosesinin sürətli və keyfiyyətli aparılmasına imkan verir.*

## Ştrixkod və mobil telefonlar

*Müasir həyatımızı mobil telefon vasitəsilə həyata keçirilən məlumat axını olmadan təsəvvür etmək çətindir. 2009-cu ilin noyabrın 4-də H.Əliyev adına idman-sərgi kompleksində informasiya-kommunikasiya texnologiyalarına həsr olunmuş beynəlxalq sərgi keçirilmişdir. Əməkdaşlarımız tərəfindən «Azercell», «Bakcell», «Azerfon» şirkətlərin sərgi sahələrinə baxılmışdır. Bu üç şirkət ölkəmizin mobil rabitə bazarında fəaliyyət göstərən əsas GSM operatorlarıdır. GS1 Azərbaycan Cəmiyyəti adları çəkilən GSM operatorların mobil telefonlardan istifadə funksiyalarının genişləndirmək məqsədilə GS1 MobileCom istifadəni təklif etmişdir. GS1 MobileCom məqsədi-abunəçinin mobil telefonların əlavə imkanlarından faydalanmasıdır.*
*Məsələn, xarici təcrübədə Mobil GEPİR-dən istifadə edərək bağlamanın üzərindəki ştrixkodu yığaraq malın istehsalçısı və mal haqqında ətraflı məlumat əldə etmək mümkündür.*

## Dövlət standartların hazırlanması

*2009-cu ilin noyabrın 6-da Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsinin müdiri Sabiq Abdullayevlə görüş keçirilmişdir. Görüşdə informasiya texnologiyaları sahəsində dövlət standartlarının yaradılmasına hazırlıq üçün Texniki Komitənin yaradılması barədə razılığa gəlinmişdir.*

## Nazirlik və idarələrə göndərdiyimiz təkliflər

*GS1 Azərbaijan təşkilatının mütəxəssisləri son dövrlər ştrixkodlaşdırma texnologiyalarından istifadə üzrə bir sıra təkliflər hazırlayıblar və ölkənin nazirlik, idarə və müəssisələrinə göndəriblər. Təkliflər aşağıdakı istiqamətləri əhatə edib:*

- ***Kənd Təsərrüfatı Nazirliyinə -*** *kənd təsərrüfatı obyektlərinin (fermalar, üzüm bağları, plantasiyalar, hovuzlar və s.) "Yerləşmə nömrəsi bazasının" (Global Location Number ing.) yaradılması. Belə bazanın mövcudluğu tədarükün istehsalçıdan istehlakçıya çatdırılması həlqəsində izlənməni təmin etməyə imkan verir.*
- ***Səhiyyə Nazirliyinə*** *- xəstələrin, dərmanların və tibbi avadanlıqların ştrixkod vasitəsilə uçotunun barədə*
- ***Ekologiya və Təbii Sərvətlər Nazirliyinə*** *- çox qiymətli və nadir ağacların növlərinin inventarizasiyasının xüsusi ştrixkod birkaları ilə aparılması.*
- ***Nəqliyyat Nazirliyinə*** *- özəl taksi sahiblərinə verilən «Fərqlənmə vərəqəsi»nin ştrixkodlarla markalanması və onun əsasında uçotun aparılması.*
- ***Dövlət Gömrük Komitəsinə*** *- ölkəyə müvəqqəti gətirilən avtomobil nəqliyyatı vasitələrinin sənədlərin ştrixkodlarla uçotu barədə*
- ***Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə -*** *radiotezlikli identifikasiya barədə*
- ***«Azərpoçt» dövlət müəssisəsinə -*** *surğuc möhürün sintetik etiket-plombla əvəzlənməsi barədə.*

*Ştrixkodlardan istifadə üzrə konkret layihələr həmçinin "Dərman vasitələrinin analitik ekspertizası Mərkəzi", "Gigiyena və Epidemiologiya Mərkəzi", "Azneft" İB və başqa təşkilatlara göndərilib.*

## Məlumat

**2009-cu il 8 sentyabr ayının 11-dən Vergilər Nazirliyi yanında Vergi Audit Departamenti GS1 Azərbaycan Cəmiyyətinin maliyyə fəaliyyətində növbədən kənar yoxlama keçirilmişdir. (Əvvəlki yoxlama 2008-ci).**

**Yoxlama prosesində hər hansı bir ciddi pozuntular və nöqsanlar aşkar edilmədi.**